**Dəmir yolu həm bizim iqtisadi gücümüzü artırır, Azərbaycan bir çox ölkələr üçün önəmli dəmir yolu məntəqəsinə çevrilir, eyni zamanda, bu, vətəndaşların rahatlığı üçün çox böyük əhəmiyyət daşıyır.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



**Bu gün Azərbaycanın sosial-iqtisadi həyatının bütün sahələrində olduğu kimi, nəqliyyat sektorunda da irihəcmli layihələr reallaşdırılır, respublikamız beynəlxalq nəqliyyat dəhlizlərinin formalaşması prosesində fəal iştirak edir, eləcə də ölkənin tranzit potensialının artırılması istiqamətində mühüm addımlar atılır.**

## Prezident İlham ƏLİYEV:

# Dəmir yollarının yenidən qurulması istiqamətində çox böyük işlər görülüb

Azərbaycan Prezidenti İlham Əliyevin dəmir yolunun yenilənməsi ilə bağlı qarşıya qoyduğu vəzifələr “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətində (QSC) yüksək keyfiyyətlə yerinə yetirilir. Enerji təchizatının sabit cərəyandan dəyişən cərəyana keçirilməsi, yol təsərrüfatının sağlamlaşdırılması, lokomotiv və vaqon parkının yenilənməsi və digər mühüm tədbirlər beynəlxalq standartlara uyğun icra edilir. Yük daşımalarına olan tələbatın ödənilməsi, xidmət səviyyəsinin müasir tələblərə çatdırılması, əlavə yüklərin cəlbi, habelə yüklərin mənzil başına təhlükəsiz və vaxtında daşınması üçün texniki vasitələrin müasirləşdirilməsi uğurla gerçəkləşdirilir.

Onu da qeyd edək ki, son illərdə “Azərbaycan Dəmir Yolları” QSC-nin inzibati binasında müasir standartlar səviyyəsində əsaslı təmir işləri həyata keçirilib. Ölkə rəhbəri İlham Əliyevin tapşırığı əsasında “ASAN xidmət” mərkəzlərinin yaradılmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunan səyyar “ASAN qatar” konsepsiyası reallaşdırılıb. Bu məqsədlə Bakı vaqon deposunda “ASAN qatar” sisteminin tətbiqi ilə bağlı xüsusi vaqonlar hazırlanıb.



Azərbaycanda yükdaşımanın səmərəli və keyfiyyətli olması üçün dəmir yolu xətlərinin yenidən qurulmasına, habelə onun saz vəziyyətdə saxlanılmasına mühüm önəm verilir. Prezident İlham Əliyevin 8 mart 2018-ci il tarixli “Bakı şəhərətrafı dəmir yolu xəttinin layihə-smeta sənədlərinin hazırlanması, əsaslı təmiri və tikintisi ilə bağlı tədbirlər haqqında” sərəncam imzalaması da bunun bariz ifadəsidir. Azərbaycan Dəmir Yollarının rəhbərliyi hazırda həmin sərəncama əsasən, dəmir yolları xəttinin əsaslı təmir olunmasını diqqət mərkəzində saxlayır, paytaxtətrafı dəmir yolu xəttinin elektrik təchizatı sisteminin əsaslı təmir edilməsini reallaşdırır.

Xatırladaq ki, artıq xeyli vaxtdır ki, Abşeron yarımadasında mövcud dəmir yolu xətlərinin yenidən qurulması və dəmir yolu şəbəkəsinin təkmilləşdirilməsi, mövcud dəmir yolu xətlərinin reabilitasiyası və bərpası, elektrik təchizatı, rabitə, eyni zamanda, işarəvermə şəbəkəsinin əsaslı təmiri, yol kənarlarının mühafizə çəpəri ilə bağlanması, bəzi dəmir yolu keçidlərinin müxtəlif səviyyəli keçidlərlə əvəzlənməsi, stansiya binalarının yenidən qurulmasına başlanılıb.

Prezident İlham Əliyevin iştirak etdiyi Bakı dairəvi dəmir yolunun Sabunçu-Pirşağı xəttinin yenidənqurmadan sonra açılışı mərasimində bu barədə ətraflı danışılıb. “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanov dövlət başçısına Abşeron dairəvi dəmir yolu xəttində aparılan yenidənqurma işləri və perspektiv planlar barədə məlumat verərək, sözügedən istiqamətdə, ümumilikdə, 17 stansiya və dayanacaq olduğunu bildirib. C.Qurbanov, həmçinin Bakı sərnişin-Sabunçu-Pirşağı-Sumqayıt sərnişin-Xırdalan-Biləcəri-Bakı sərnişin dairəvi dəmir yolu xəttinin ümumi uzunluğunun 191,6 kilometrə çatdığını, aparılan yenidənqurma işləri çərçivəsində Zabrat-1, Məmmədli dayanacaqlarının, Pirşağı və Zabrat-2 stansiyalarının yenidən qurulduğunu qeyd edib.

Prezident İlham Əliyev Sabunçu-Pirşağı xəttinin yenidənqurmadan sonra açılışı mərasimi çərçivəsində Bakı Dəmir Yolu vağzalında “Defektoskop” infrastruktur-diaqnostika kompleksi, habelə Dəmir yolu muzeyi ilə də tanış olub.

Dövlət başçısına muzey barədə verilən məlumatda xatırladılıb ki, Azərbaycanda ilk elektrikləşdirilmiş dəmir yolu sahəsinin təntənəli açılışı 1926-cı il iyulun 6-da olub. Muzeydə bununla əlaqədar, həmçinin ölkəmizin dəmir yolu sahəsinin inkişaf mərhələlərinə aid müxtəlif maraqlı eksponatlar sərgilənib. Eyni zamanda, XIX əsrdə dəmir yolunun yaranması tarixini əks etdirən foto və video materiallar, dəmir yolu və qatar modelləri yer alıb. Muzeydə bədii və sənədli filmlərin nümayişi də nəzərdə tutulub.

Dövlətimizin başçısı mərasimdən sonra bir qrup dəmiryolçu ilə, həmçinin metronun “28 May” stansiyasının qarşısında vətəndaşlarla görüşüb. Dəmiryolçulara son illər ölkə dəmir yollarının inkişafı istiqamətində görülən işlərlə bağlı danışan Prezident İlham Əliyev deyib: “Dəmir yollarının yenidən qurulması istiqamətində çox böyük işlər görülüb. Mən artıq bu rəqəmləri səsləndirmişəm. Dünya miqyasında ən mötəbər beynəlxalq təşkilatlardan biri olan Davos Dünya İqtisadi Forumu Azərbaycanda dəmir yollarının keyfiyyəti ilə bağlı hesabatda göstərib ki, Azərbaycan dəmir yollarının səmərəliliyi baxımından dünyada 12-ci yerdədir, dəmir yollarının keyfiyyətinə görə 34-cü yerdədir. Bütün bunları son illər ərzində biz həll etmişik”.

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, dəmir yollarının abadlaşdırılması, qurulması, dəmir yolu xidmətlərinin təkmilləşdirilməsi istiqamətində son illər ərzində, xüsusilə Cavid Qurbanov bu vəzifəyə təyin ediləndən sonra böyük irəliləyiş var. Həm Azərbaycan artıq beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevrilib, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib, Şimal-Cənub nəqliyyat dəhlizi fəaliyyətə başlayıb.

Bütün bunlarla bərabər hazırda yükdaşımalar getdikcə artır, ölkə daxilində infrastruktur təzələnir, İsveçrə istehsalı olan və dünya miqyasında ən gözəl və təhlükəsiz “Ştadler” vaqonları alınır.

Prezident İlham Əliyev gələn il artıq Sumqayıt-Pirşağı dəmir yolunun birləşəcəyini, bununla da dairəvi yolun formalaşacağını, qarşıdakı dövrdə isə dəmir yolu şəbəkəsinin genişləndirilməsi üçün investisiya proqramında əlavə vəsait nəzərdə tutulacağını diqqətə çatdırıb.

Çıxışının sonunda dəmir yolunun iqtisadi əhəmiyyətinə toxunan dövlətimizin başçısı Azərbaycanın hazırda bir çox ölkələr üçün önəmli dəmir yolu məntəqəsinə çevrildiyini, eyni zamanda, bunun vətəndaşların rahatlığı üçün çox böyük əhəmiyyət daşıdığını vurğulayıb. Eyni zamanda, Bakı-Gəncə sürət qatarının işləməsinin ölkəmizə böyük dəyişiklik gətirməsini, Gəncə-Ağstafa dəmir yolunun işə salınması istiqamətində tədbirlər görüldüyünü, Qəbələyə, Şahdağa qədər dəmir yollarının tikintisinin, Bakı-Yalama, Astara-Ələt dəmir yolunun bərpasının nəzərdə tutulduğunu vurğulayıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial məsələlərinin həlli dayanır. Vətəndaşların sosial rifahının yaxşılaşdırılması istiqamətində icra olunan layihələr ardıcıl və davamlı xarakter daşıyır. Bu layihələr sırasında ölkəmizdə yol-nəqliyyat infrastrukturunun yenilənməsinə xüsusi diqqət yetirilir.

Görülən işlər nəticəsində Azərbaycanda ən müasir yol-nəqliyyat infrastrukturu yaradılıb. Bu da vətəndaşların rahatlığına hərtərəfli imkan yaradır. Bu baxımdan Abşeron dairəvi dəmir yolu xəttinin yenidən qurulması böyük rol oynayır. Paytaxt ətrafındakı qəsəbələrdə yaşayan sakinlər rahat və təhlükəsiz şəkildə şəhər istiqamətinə və mənzil başına çata biləcəklər. Layihənin icrası paytaxtda tıxacların qarşısının alınmasına, hərəkətin təhlükəsizliyinin və intensivliyinin təmin olunmasına, həmçinin ekoloji vəziyyətin daha da yaxşılaşdırılmasına töhfə verir.

***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2019.- 21 noyabr. S. 1.